**UDK: 338.462**
**BBK: 65.04**

***Aqil Məhiyəddin oğlu ƏSƏDOV***
***Bakı Avrasiya Universiteti, "İqtisadiyyat və idarəetmə" kafedrası***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent, a.asadov1976@gmail.com***

***Zaur Ədalət oğlu ƏSƏDZADƏ***
***Polşa İqtisadiyyat və İnsan Elmləri Universiteti***
***magistrant, zaur.esedzade.1130@gmail.com***

***Gözəl Rahib qızı ADIGÖZƏLLİ***
***Bakı Avrasiya Universiteti, magistrant***
***adigozelligozel.99@gmail.com***

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA TURİZM XİDMƏTLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafı üçün potensial imkanların tədqiqi və bu imkanlardan səmərəli istifadə ilə bağlı təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – araşdırma zamanı sistemli və kompleks yanaşma, induksiya və deduksiya metodlarından istiufadə edilib, habelə xidmət sahələrinin iqtisadi inkişafa təsiri müxtəlif aspektlərdən müqayisəli təhlil edilib və müvafiq ümumiləşdirmələr aparılıb.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – alınmış nəticələrdən, irəli sürülmüş təklif və tövsiyələrdən nəzəri və praktiki problemlərin həll olunmasında, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunda xidmət sahələrinin inkişafında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – müasir dünya iqtisadiyyatının reallıqları, qlobal məkanda baş verən tendensiyalar, ölkənin və iqtisadi rayonun perspektivləri nəzərə alınmaqla xidmət sahələrinin inkişafı üzrə təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə dünyada xidmət sahələrinin sürətlə inkişaf etdiyi konkret rəqəmlərlə ifadə olunub. Müəllif Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin müxtəlif növlərinin, xüsusilə sağlamlıq turizminin inkişaf etdirilməsinin zəruri olduğunu əsaslandırıb. Kəlbəcər rayonunda yerləşən İstisu sanatoriyasından, eləcə də digər müalicəvi bulaqlardan və dərman bitkilərindən istifadə edilməsi ilə sağlamlıq turizminin inkişafına dair fikirlər irəli sürülüb. Ümumilikdə xidmət və istehsal sahələrinin inkişafına kompleks yanaşılması tövsiyə edilsə də, xidmət sektoruna qoyulmuş investisiyaların daha tez özünü ödədiyi qeyd edilir. Məqalənin sonunda, ümumi dünya təcrübəsinə və aparılan araşdırmalara əsasən Şərqi Zəngəzur iqtisadi rayonunda turizm potensialından səmərəli və çevik istifadənin təmin olunması istiqamətində təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: xidmət sahələri, turizm, sağlamlıq turizmi, Şərqi Zəngəzur, Kəlbəcər, dərman bitkiləri.***

## *Giriş*

Müasir həyat öz intensivliyi ilə seçilir. Yaşadığımız dövrdə sosial-iqtisadi proseslər, baş verən dəyişikliklər o qədər intensivdir ki, bəzən dəyişikliklərə uyğunlaşmağa belə zaman yetmir. Bununla belə, bütün hallarda insan amili birincidir və onun tələbatının ödənilməsi, məmnunluğu çox vacibdir. Təcrübə göstərir ki, müasir dövrdə xidmət sektorunun sürətli inkişafının bir səbəbi də cəmiyyətin məmnunluğunda mühüm rol oynaması ilə bağlıdır. Postindustrial informasiya cəmiyyəti formalaşdıqca, əhalinin tələbatları sürətlə artdığından və onların çeşidi genişləndiyindən

xidmət sektorunun rolu da artmaqdadır. Müşahidələr göstərir ki, son yüz ildə xidmət sektorunun özündə köklü dəyişikliklər baş verib. Belə ki, XX əsrin əvvəllərində göstərilən xidmətlərin çeşidi məhdud idi və ümumi strukturda ticarət, nəqliyyat, məişət xidmətləri və çoxlu ev işləri üstünlük təşkil edirdi. Bu gün Ümumdünya Ticarət Təşkilatının (ÜTT) təsnifatına görə 160-dan çox xidmət növü mövcuddur [1; 10].

Araşdırmalar göstərir ki, dünyada xidmət sektoru insan fəaliyyətinin ən müxtəlif sahələrini özündə birləşdirən güclü və müxtəlif sistemdir: məişət xidmətləri, maliyyə xidmətləri, təhsil və elmi xidmətlər, bədən tərbiyəsi və idman, mehmanxana, turizm xidmətləri, səhiyyə, təhsil və nəqliyyat xidmətləri, ticarət, sığorta, konsaltinq xidmətləri və s. [3; 8].

XXI əsrdə dünya ölkələrinin iqtisadiyyatlarında xidmətlərin rolunun artması tendensiyası müşahidə olunur. İqtisadi artıma təsir göstərmək üçün xidmət sektorunun inkişafının sürətləndirilməsi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün əsas problemdir. Sənaye iqtisadiyyatının postindustrial və ya xidmət iqtisadiyyatına çevrilməsi XXI əsrin mühüm xarakterik cəhəti hesab edilə bilər. Bu obyektiv proses məhsuldar qüvvələrin mütərəqqi hərəkətinə əsaslanır ki, bu da öz növbəsində əmək məhsuldarlığının və digər istehsal amillərinin artmasına səbəb olur.

**İşğaldan azad edilmiş Şərqi Zəngəzurun inkişaf istiqamətləri**

İşğaldan azad edilmiş ərazilərin də inkişaf etdirilməsində dünya reallıqlarından irəli gələn zərurətin nəzərə alınması vacibdir. Aydındır ki, hal-hazırda Azərbaycanda sosial-iqtisadi tərəqqi baxımından prioritet regionlar işğaldan azad edilmiş ərazilərdir. Bu ərazilərin hər biri özünəməxsus üstünlüklərə, potensial imkanlara və ixtisaslaşma istiqamətlərinə malikdir.

Azərbaycanın 14 iqtisadi rayonundan biri olan Şərqi Zəngəzur iqtisadi rayonu, təqribən 7,5 min $km^2$ əraziyə malik olmaqla, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarından ibarətdir. İqtisadi rayon uzunmüddətli və dinamik tərəqqi üçün zəngin potensial imkanlara malikdir. Əlvan metal ehtiyatları, əkinəyararlı torpaq sahələri, geniş otlaq sahələri, faydalı qazıntı ehtiyatları regionun inkişafı üçün zəngin imkanlar yaradır. Bununla belə iqtisadi rayon olduqca geniş çeşidli və zəngin turistik imkanlara da malikdir. Şərqi Zəngəzur iqtisadi rayonu qış turizmi, sağlamlıq turizmi, yaylaq turizmi, kənd turizmi və s. turizm növlərinin inkişafı üçün geniş imkanlara malikdir. Xüsusilə, Kəlbəcər-Laçın yaylaqları, müalicəvi bulaqlar Cəbrayıl, Zəngilan ərazisindəki tarixi abidələr, qədim tarixə malik Xudafərin körpüsü çoxsaylı turistlərin regiona cəlb edilməsi üçün geniş imkanlar yaradır [11].

Bütün qeyd edilənlər, Şərqi Zəngəzur iqtisadi rayonunun da xidmət sektorları timsalında inkişafının daha perspektivli olduğunu göstərir. Belə ki, ilk növbədə ərazinin məskunlaşması, insanların öz doğma torpaqlarında rahat həyata qayıtması da xidmət sahələrinin inkişafına prioritet yanaşmanı zəruri edir. Ona görə ki, müxtəlif xidmət sahələrinin inkişafının mühüm səbəblərindən biri də sosial ehtiyaclar sistemindəki dərin transformasiyadır. Texnoloji yanaşmanın, texnika və texnologiyanın, istehsal strukturunun inkişafı və getdikcə mürəkkəbləşməsi, əhalinin həyat səviyyəsinin yüksəlməsi, cəmiyyətdə sosial fəallığın artması, eləcə də müasir insanın özünün təkmilləşməsi (internetdən istifadə, dünyagörüşünün genişlənməsi, dünyaya virtual çıxışın asanlaşması və s.) ardıcıl surətdə əhatə dairəsini genişləndirmişdir. Bunun nəticəsində, artıq xidmət iqtisadiyyatının formalaşması bütün ölkələr üçün ümumi olan bir prosesdir. Təbii ki, bu formalaşma eyni sürətlə və eyni miqyasda baş vermir, dövlətlərin hər birində iqtisadi inkişaf səviyyəsindən bilavasitə asılı olaraq, daxili ilkin şərait yetişdikcə həyata keçirilir. Təcrübə göstərir ki, ölkədə iqtisadiyyatın inkişaf səviyyəsi, əmək məhsuldarlığı nə qədər yüksəkdirsə, qeyri-maddi məhsul növlərinin istehsalına – xidmət sahələrinin inkişafına yönəlmiş əmək fəaliyyəti də iqtisadiyyatın strukturunda bir o qədər yüksək olur. Dünya Bankının məlumatlarına görə, artıq XX əsrin sonu, XXI əsrin əvvəllərində dünya üzrə ümumi məhsulda (DÜÜM) xidmətlərin payı, orta hesabla 68%-ə çatıb [2; 7; 10].

Bütün bunlar, erməni işğalı nəticəsində, müxtəlif xüsusiyyətlərə malik, fərqli texniki-texnoloji imkanlara sahib ərazilərdə məskunlaşmış insanların 30 ilə yaxın müddətdə yaşadıqları ərazilərdən geri dönərək Şərqi Zəngəzur iqtisadi rayonunda toplaşması (məkunlaşması) üçün xidmət sahələrinin inkişafını zəruri edir. Hansı ki, iqtisadi rayonda xidmət sahələrinin inkişafı nəinki regionun

daha sürətli inkişafına kömək edər, hətta yerli və dövlət büdcəsinə də iri həcmdə gəlirlər gətirə bilər. Nəzərə alsaq ki, hələ SSRİ dövründə Kəlbəcər İstisu sanatoriyası öz müalicəvi əhəmiyyəti ilə nəinki keçmiş İttifaqda, bütün dünyada məşhur idi, onda elə yalnız bir İstisudan büdcəyə milyonlarla manat vəsait qazandırmaq olar. Hələ Kəlbəcərin və digər ərazilərin başqa yüzlərlə dərdin dərmanı olan bulaqlarını da nəzərə alsaq, regionda sağlamlıq turizminin inkişafı on milyonlarla manat vəsait qazandıra bilər.

Ümummilli lider Heydər Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunun ən böyük inzibati rayonu olan Kəlbəcər haqqında deyir ki: "Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir". Qafqazda geologiya elminin inkişafında xüsusi rolu olan, genişmiqyaslı geoloji tədqiqatların aparılmasına rəhbərlik etmiş **V.Avixin sözləri ilə desək, kim Tərtərçay dərəsi boyunca gəzməyibsə, İsveçrənin gözəlliyinə yalnız o heyran ola bilər. Bu fikirlər də iqtisadi rayonda, onun bir hissəsi olan Kəlbəcərdə xidmət sahələrinin, xüsusilə turizmin inkişafı üçün münbit şəraitin olduğunu göstərir [1; 2].**

**Dünya təcrübəsi və Şərqi Zəngəzurda turizmin inkişafı**

Müasir dünya dövlətlərinə nəzər saldıqda, görünür ki, xidmət sektorunun inkişafı və tərəqqisində mütləq lider Amerika Birləşmiş Ştatlarıdır. Dünya xidmət istehsalının 1/3-dən çoxunu özündə cəmləşdirən bu ölkə digər ölkələrə də yol açır, xidmət sahələrinin ümumi dünyəvi inkişafına təkan verir. Xidmət sahələrinin inkişafına Amerika liderliyindən sonra Böyük Britaniya, daha sonra Fransa, Kanada və İtaliya gəlir. İnkişaf etmiş Almaniya və Yaponiyada sənaye iqtisadiyyatının xüsusiyyətləri daha çox qorunub saxlansa da, burada da son illər xidmət sahələrinin sürətli inkişafı açıq şəkildə özünü büruzə verməkdədir.

Xidmət sektorunda məşğulluğa gəldikdə: 2018-2019-cu illərdə iqtisadiyyatın bu sektorunda məşğul olan əmək qabiliyyətli əhalinin xüsusi çəkisi dünya əhalisinin 46%-nı (1,34 milyard nəfərdən çox) ötüb. İnkişaf etmiş ölkələrdə və Avropa İttifaqında bu rəqəm 2019-cu ildə əhalinin 75%-dən çoxunu təşkil edib. Təbii ki, COVID-19 pandemiyasının dünyanı əhatə etməsi xidmət sektorunun inkişaf tempini aşağı salıb və postpandemiya dövründə hazırkı nəticələrin daha yüksək olacağı qaçılmazdır [8; 9].

Avropaya nisbətən, qonşu Rusiyada xidmətlər daha yavaş inkişaf edir və istehsal daha üstün çəkiyə malikdir. Belə demək mümkünsə, sanksiyalar və iqtisadi böhran şəraitində Rusiya diqqətini daha çox əmtəə istehsalına yönəldir. Federal Dövlət Statistika Xidmətinin məlumatına görə, 2019-cu ilin yanvar ayında göstərilən pullu xidmətlərin ümumi həcmi 2018-ci ilin dekabr ayı ilə müqayisədə 26,2% azalıb. Ən böyük azalma baytarlıq xidmətlərinin göstərilməsində - 30,9%, tibbi xidmətlərdə - 28,1%, fərdi xidmətlərdə - 20,8% qeydə alınıb. Həmçinin, təhsil xidmətləri sahəsində istehlak 23,1%, turizm və mehmanxanada yerləşdirmə sahəsində isə 28% azalma qeydə alınıb. Bunların qarşılığında, göstərilən dövrdə rabitə xidmətlərinin həcmi 2% artıb [8; 10].

Araşdırmalara əsasən demək olar ki, Rusiyanın xidmət sektorunun mühüm problemləri arasında kiçik biznesin zəif inkişafı əsas yer tutur. Belə ki, statistik məlumatlara görə, 2018-ci ildə 1 milyona yaxın kiçik müəssisə rəsmi olaraq bağlanıb ki, bu da daha çox maliyyə sektorunda məhsuldarlığın çox aşağı olması ilə əlaqələndirilir. Eyni zamanda, başqa bir ciddi problem Rusiyada xidmət sektoru ilə ölkə iqtisadiyyatının ehtiyacları arasında uyğunsuzluqdur. Problemlərə iqtisadiyyatın yüksək inhisarçılığını, inzibati təsirləri, korporativ idarəetmənin keyfiyyətinin aşağı olmasını, insan resurslarının xüsusiyyətlərini və s. məsələləri də aid etmək olar.

Qeyd olunduğu kimi, artıq 2 il əvvəl planetimizin əhalisinin 46%-i bu seqmentdə işləyirdi və bu rəqəm artmaqdadır. Belə ki, iqtisadiyyatın bu sektorunun fəal inkişafı müşahidə olunur və bir çox ölkələr öz iqtisadiyyatlarını yenidən qururlar ki, maddi istehsala deyil, xidmət sahələrinə üstünlük verilsin. Artıq iqtisadiyyatda nəqliyyat sistemi, bilik tutumlu xidmət sahələri, informasiya texnologiyaları, turizm, kosmosa buraxılış xidmətləri və s. trendə çevrilməkdədir [5; 9].

Şərqi Zəngəzurda sağlamlıq turizmindən əldə ediləcək milyonlarla vəsaitdən başqa, müalicəvi suların satışı da rentabellidir. Hələ işğal dövründə işğalçı Ermənistan dövləti müxtəlif bulaqların suyunu 0,5 litrlik şüşə butulkalarda qablaşdıraraq, 1 ədədini 1 dollara Rusiyada və digər ölkələrdə satışa çıxarmışdır. Sahənin vəd etdiyi gəlirlərlə yanaşı, regionda məskunlaşma, məşğulluğun təmin edilməsi baxımından da turizmin inkişafı olduqca səmərəlidir. Ümumiyyətlə, xidmət sahələrinin inkişaf etdirilməsi regionun operativ şəkildə və qısa zamanda dirçəldilməsi baxımından da əlverişlidir. Ona görə ki, xidmət sferasında, əksər hallara, investisiyaların özünü ödəmə müddəti daha qısadır və bu baxımdan da sahə daha cəlbedicidir.

Təbii ki, bütün xidmət sahələrinin inkişafı üçün müsbət şəraitə və stimullara ehtiyac var, çünki ölkə əhalisinin ticarət müəssisələri, xüsusilə müasir tələblərə uyğun məişət xidməti, mədəniyyət müəssisələri ilə təminatı baxımından beynəlxalq səviyyədən geri qalmaqda davam edir. Lakin, bu sahələrdə resursların yenidən bölüşdürülməsi yalnız xarici təcrübə və ehtiyaclar nəzərə alınmaqla, əhəmiyyətli dərəcədə yeniləndikdə gözlənilən effekti verəcəkdir. Bu strategiyanın həyata keçirilməsində dövlət həlledici rol oynayır.

Araşdırmalar göstərir ki, xidmət sahəsinin təkamülünün ən mühüm qanunauyğunluğu ondan ibarətdir ki, o, maddi istehsaldan təcrid olunmuş şəkildə deyil, bu fəaliyyət növlərinin inteqrasiyası şəraitində inkişaf edir və bu, inteqrasiyanın dərinliyindən daha çox asılıdır. Bu baxımdan da, Şərqi Zəngəzurda da xidmət sahələrinin (turzimin növləri) inkişafı ilə yanaşı, maddi istehsal sahələrinin də perspektivləri nəzərdən keçirilməlidir. Əslində, xidmət sahələri, xüsusilə turizm sferası daha tez gəlir gətirmək imkanında olsa da, xidmət və istehsal sferalarının inkişafına komplek yanaşılması daha məqsədəuyğundur [3; 4; 6].

Müasir iqtisadiyyatın səmərəliliyi əmtəə və xidmətlərin qarşılıqlı təsirinin və qarşılıqlı nüfuzunun artmasından, istehsal və xidmət sahələrinin bir-birinə daha çox nüfuz etməsindən asılıdır. Sənayedə funksiyalar çoxalır ki, bu da texniki, inzibati və digər mütəxəssislərin real məhsul istehsalında iştirakı ilə ifadə olunur. Əmtəə və xidmətlərin istehsalı artdıqca, bu sektorların sektorlararası əlaqələri şaxələnir və mürəkkəbləşir: xidmətlərdə maddi istehsalın səviyyəsi və keyfiyyəti artır, əmtəə istehsalında xidmətlərin dəyəri getdikcə daha böyük olur.

### *Nəticə*

Xidmət sektorunun dinamikası bir sıra uzunmüddətli fundamental iqtisadi amillərlə müəyyən edilir. İctimai əmək bölgüsü sistemində məişət xidmətləri istehsalı üzrə ixtisaslaşan müstəqil bölmələrin formalaşması ehtiyacların yüksəliş qanununun tələbləri ilə şərtlənir. Əhalinin istehlak xərclərinin tərkibində xidmətlərə, xüsusilə də yüksək səviyyəli xidmətlərə xərclərin payı artır.

İstehsal sahələri inkişaf edən ölkədə xidmətlərə tələbat daha da dinamik şəkildə artır və bu növ xərclər bütün sənaye sahələrində biznesin ümumi xərclərinin böyük bir maddəsinə çevrilir. İlk növbədə məişət və sosial xidmətlərə əlavə ehtiyaclar davamlı urbanizasiya prosesinə səbəb oldu. Əhalinin şəhərlərə sistemli gediş-gəlişi nəticəsində kənd həyat tərzinə xas olan özünütəminat prinsipləri pozulmuş, əvvəllər məişət çərçivəsində yerinə yetirilən funksiyalar ixtisaslaşdırılmış strukturlara verilmişdir. İctimai istehsalın inkişafı II Dünya müharibəsindən sonra xidmətlərin dinamikasına və qadınların istehsalata kütləvi şəkildə cəlb edilməsinə güclü şəkildə təkan verdi. İctimai iaşə sisteminin, camaşırxana və kimyəvi təmizləmə xidmətlərinin, məktəbəqədər təhsil müəssisələrinin və digər xidmətlərin yerləşdirilməsi birbaşa bu halla bağlıdır. Genişmiqyaslı və müxtəlif xidmət növləri kütləvi ixtisaslamaya səbəb oldu: avtomobil nəqliyyatı sürətlə inkişaf etdi, Qərb ölkələri avtomobillərə texniki xidmət stansiyaları, yanacaqdoldurma məntəqələri, dayanacaqlar, motellər və geniş çeşiddə xidmət göstərən digər müəssisələr şəbəkəsi ilə əhatə olundu, avtomobil sürücülərinin ehtiyacları (qəhvəxanalar, kinoteatrlar, motellər və s.) üçün zəruri olan sahələr inkişaf etdi. Qeyd edilənlərə əsaslanaraq, eləcə də xidmət sahələrinin inkişafına dair dünya təcrübəsinə istinad edərək, Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişafı istiqamətində aşağıdakıların nəzərə alınması məqsədəuyğun olar:

➢ İqtisadi rayonda sağlamlıq turizminin inkişafı prioritet qəbul edilsin və müalicəvi sular, dərman bitkiləri haqqında müxtəlif dillərdə ensklopedik informasiya bazası formalaşdırılsın;

➢ Şərqi Zəngəzur adlı portalda regionun potensial imkanları dəqiqliklə ifadə edilsin və xüsusilə xidmət sferasının cəlbedici tərəfləri işıqlandırılsın;

➢ İqtisadi rayonda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə investisiya qoyuluşlarının stimullaşdırılması məqsədilə, investisiya həcminə uyğun olaraq, müəyyən güzəştlərin - vergi tətilləri, uzunmüddətli istifadə üçün torpaq sahələrinin ayrılması, güzəştli satış imkanlarının yaradılması və s. kimi stimullaşdırıcı təkliflərin irəli sürülməsi məqsədəuyğun olardı (Məsələn, 150-250 min manat investisiya qoyan şəxslər 3 il vergidən azad edilsin, 500-650 min manat investisiya qoyan fiziki və ya hüquqi şəxslərə hər hansı torpaq sahəsindən 99 illik ödənişsiz istifadə hüququ verilsin və s.);

## ƏDƏBİYYAT


1. "Azərbaycanda nəqliyyat və turizm sektorlarının davamlı inkişafı: problemlər və perspektivlər", Monoqrafiya, Bakı, AMEA İqtisadiyyat İnstitutu, 242 s.
2. A.M.Əsədov, Ə.M.Əsədov. "Xidmət sahələrində kommersiya fəaliyyətinin əsasları". Dərs vəsaiti, Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2016, 250 s.
3. M.M.Əhmədov. "Xidmət sahələrinin marketinqi". Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2015, 372 s.
4. М.М.Романова. "Роль и функциональные особенности сферы услуг в современном мире". "Модель менеджмента для экономики, основанной на знаниях" материалы V Международная научно-практическая конференция, М.:, МЭСИ, 2013, стр. 123-134.
5. А.А.Чернова. "Специфика и особенности образовательных услуг в сфере услуг". Вестник УМО "Экономика, статистика и информатика", М.: 2014, № 2, с. 13-16.
6. З.К.Омарова. "Развитие сферы услуг как фактор экономического роста". Журнал "Фундаментальные исследования", 2007. – № 12 (2), с. 373-373.
7. M.A.Katouzian. "The Development of the Service Sector: A New Approach". "Oxford Economic Papers", New Series, Vol. 22, No. 3 (Nov., 1970), pp. 362-382 (21 pages).
8. О.И.Родина. "Особенности формирования и развития сферы услуг на современном этапе". Известия вузов Северо-Кафказский регион, Общественные науки, 2004, №4, с. 64-72.
9. В.В.Котилко, Е.А.Ефимова. "Развитие сферы услуг и трансформация рынка труда в России: региональный аспект". Государсвенный советник, 2013, №4, с. 60-70.
10. https://www.kubsu.ru/sites/default/files/users/27096/portfolio/kursovaya_rabota_2021.pdf;
11. https://www.researchgate.net/publication/316227722_The_Development_of_Service_Economy
12. https://www.adb.org/sites/default/files/publication/31114/developing-service-sector-engine-growth-asia.pdf
13. https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99rqi_Z%C9%99ng%C9%99zur_iqtisadi_rayonu
14. http://iee.msite.unn.ru/wp-content/uploads/sites/9/2019/06/Razvitie-sfery-uslug-gotovaya-redaktsiya_130619.pdf, c. 39-43, c. 241-245;

*Агиль Махияддин оглы Асадов*
*Бакинский Евразийский Университет,*
*кафедра “Экономики и менеджмента”*
*доктор философии по экономики,*
*доцент, a.asadov1976@gmail.com*

*Заур Адалат оглы Асадзаде*
*Польский Университет Экономики и*
*Гуманитарных наук,*
*магистр, zaur.esedzade.1130@gmail.com*

*Гозел Рахиб кызы Адигозалли*
*Бакинский Евразийский Университет,*
*магистр, адигозеллигозель.99@gmail.com*

## Направления развития туристических услуг в Восточно-Зангезурском экономическом районе

*Резюме*

**Целью исследования** является изучение потенциальных возможностей развития Восточно-Зангезурского экономического района и разработка предложений и рекомендаций по эффективному использованию этих возможностей.

**Методология исследования** – системный и комплексный подход, в ходе исследования применялись методы индукции и дедукции, а также был проведен сравнительный анализ влияния территорий обслуживания на экономическое развитие с различных сторон и сделаны соответствующие обобщения.

**Актуальность исследования** - полученные результаты, предложения и рекомендации могут быть использованы для решения теоретических и практических задач, а также в развитии сферы услуг в Восточно-Зангезурском экономическом районе.

**Результаты исследования** включают в себя разработку предложений и рекомендаций по развитию услуг с учетом реалий современной мировой экономики, тенденций в мировом пространстве, перспектив страны и экономического региона.

**Оригинальность и научная новизна исследования** - в статье конкретными цифрами выражено бурное развитие сферы услуг в мире. Автор обосновал необходимость развития различных видов туризма в Восточно-Зангезурском экономическом районе, особенно оздоровительного туризма. Высказаны мнения о развитии оздоровительного туризма с использованием санатория «Истису» в Кельбаджарском районе, а также других лечебных источников и лекарственных растений. Хотя в целом рекомендуется комплексный подход к развитию сферы услуг и производства, отмечается, что инвестиции в сферу услуг окупаются быстрее. В конце статьи на основе общего мирового опыта и исследований были сделаны предложения по обеспечению эффективного и гибкого использования туристского потенциала Восточно-Зангезурского экономического района.

***Ключевые слова: зоны обслуживания, туризм, оздоровительный туризм, Восточный Зангезур, Кельбаджар, лекарственные растения.***

***Agil Mahiyaddin Asadov***
***Baku Eurasia University,***
***Department of Economics and management,***
***Doctor of Philosophy in Economics,***
***associate professor, a.asadov1976@gmail.com***

***Zaur Adalat Asadzade***
***Polish University of Economics and Human Sciences,***
***master, zaur.esedzade.1130@gmail.com***

***Gozal Rahib Adigozalli***
***Baku Eurasian University,***
***master,***
***adigozelligozel.99@gmail.com***

***Development directions of tourism services in East Zangazur economic region***

***Summary***

**The aim of the study** is to study the potential opportunities for the development of the East Zangazur economic region and to develop proposals and recommendations for the effective use of these opportunities.

**The research methodology** - a systematic and comprehensive approach, induction and deduction methods were used during the research, as well as a comparative analysis of the impact of service areas on economic development from various aspects and relevant generalizations were made.

**The significance of the study**- the obtained results, proposals and recommendations can be used to solve theoretical and practical problems, as well as in the development of services in the East Zangazur economic region.

**The results of the study** include the development of proposals and recommendations for the development of services, taking into account the realities of the modern world economy, trends in the global space, the prospects of the country and the economic region.

**The originality and scientific novelty of the research** - the article expresses the rapid development of services in the world with concrete figures. The author substantiated the need to develop various types of tourism in the East Zangazur economic region, especially health tourism. Opinions were expressed on the development of health tourism using the Istisu sanatorium in the Kalbajar region, as well as other medicinal springs and medicinal plants. Although a comprehensive approach to the development of services and manufacturing is generally recommended, it is noted that investments in the service sector pay off faster. At the end of the article, based on the general world experience and research, proposals were made to ensure the efficient and flexible use of tourism potential in the East Zangazur economic region.

***Key words: service areas, tourism, health tourism, East Zangazur, Kalbajar, medicinal plants.***